ISSN 2219-5882

# KİTABXANAŞÜNASLIQ VƏ İNFORMASİYA

Elmi-nəzəri və praktiki jurnal

№1 (10)





2013

# KİTABXANAŞÜNASLIQ VƏ İNFORMASİYA

ELMİ-NƏZƏRİ VƏ PRAKTİKİ JURNAL

## №1 (10)

*"Kitabxanaşünaslıq və informasiya" jurnalı 08.10.2010-cu il tarixində Beynəlxalq ISSN Mərkəzi (Paris, Fransa) tərəfindən 2219-5882 saylı nömrə ilə ardı davam edən nəşrlərin beynəlxalq reyestrinə daxil edilmişdir.*

M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası

Bakı – 2013

| | |
|---|---|
| Təsisçi və Baş redaktor: | Abuzər XƏLƏFOV<br>*Əməkdar elm xadimi, BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki, tarix elmləri doktoru, professor* |
| Baş redaktor müavini: | Knyaz ASLAN<br>*Fəlsəfə doktoru (pedaqoji elmlər üzrə), dosent* |
| Məsul katib: | Pərviz KAZİMİ<br>*Fəlsəfə doktoru (tarix elmləri üzrə), dosent* |

| | |
|---|---|
| Redaksiya heyəti: | Tuncel Acar, *Türkiyə Milli Kitabxanasının direktoru* |
| | Yekaterina Nikonorova, *fəlsəfə elmləri doktoru, professor, Rusiya Dövlət Kitabxanasının direktor müavini* |
| | Yıldız Bakaşova, *fəlsəfə elmləri doktoru, professor, Qırğızıstan Milli Kitabxanasının direktoru* |
| | Azad Qurbanov, *fəlsəfə doktoru (fizika-riyaziyyat elmləri üzrə), dosent* |
| | Aybəniz Əliyeva-Kəngərli, *filologiya elmləri doktoru, AMEA-nın Elmi Kitabxanasının direktoru* |
| | Xəlil İsmayılov, *tarix elmləri doktoru, professor* |
| | Bayram Allahverdiyev, *tarix elmləri doktoru, professor* |
| | Kərim Tahirov, *fəlsəfə doktoru (tarix elmləri üzrə) Azərbaycan Milli Kitabxanasının direktoru* |
| | Mayıl Əhmədov, *Prezident Kitabxanasının direktoru* |
| | Lətifə Məmmədova, *fəlsəfə doktoru (tarix elmləri üzrə) Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin sektor müdiri* |
| | İrina Juravlyova, *V.N.Karazin adına Xarkov Milli Universiteti Mərkəzi Elmi Kitabxanasının direktoru* |
| | Vladimir Klyuyev, *pedaqoji elmlər namizədi, professor* |
| | Tuncer Yılmaz, *Türkiyə Böyük Millət Məclisi Kitabxana və Arxiv Xidmətəri Başkan Yardımcısı, fəlsəfə doktoru* |
| | Asadjon Xocayev, *A.Nəvai adına Özbəkistan Milli Kitabxanasının direktoru* |
| | Nadir İsmayılov, *fəlsəfə doktoru (pedaqoji elmlər üzrə), dosent* |



Jurnal Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydə alınmışdır.
Şəhadətnamə № 3135,16.03.2010.

---

Redaksiyanın ünvanı: Bakı şəhəri, Az1148., Z.Xəlilov küçəsi, 23
Bakı Dövlət Universiteti, 2 saylı tədris korpusu, mərtəbə 4, otaq № 410
Əlaqə telefonu: 439-03-66; (050) 365-48-41
№1 (10) yanvar-aprel-dekabr, 2013



© *"Kitabxanaşünasliq və informasiya", 2013, №1(10).*


# LIBRARY SCIENCE AND INFORMATION

## SCIENTIFICO-THEORETICAL AND PRACTICAL JOURNAL

# №1(10)


*The journal of «Library science and information» dates in 08.10.2010 was included to the international schedule by ISNN Centre (Paris, France) numbered 2219-5882 with the regulation of publications to be continued.*

**Baku - 2013**

# UŞAQ KİTABXANALARININ İNFORMASİYALAŞDIRILMASI XÜSUSİYYƏTLƏRİ

**E.Y.ƏHMƏDOV**
***pedaqogika üzrə fəlsəfə doktoru, dosent***
***Bakı Dövlət Universiteti***
***e.ehmedov@mail.ru***

*Məqalədə uşaq kitabxanalarının informasiyalaşdırılmasına təsir edən amillər təhlili olunub. Burada uşaq kitabxanasının sənəd-informasiya fondlarının zənginləşməsi, həmçinin kitabxana-informasiya texnologiyaları ilə təminatı nəzərdən keçirilib.*

***Açar sözlər:*** *uşaq kitabxanası, informasiyalaşdırma, kompüterləşdirmə, sənəd-informasiya daşıyıcısı.*

Müasir uşaq kitabxanaları uşaq kitablarını və başqa lazımi ədəbiyyatı toplayan informasiya mərkəzi rolunu oynayır, eləcə də informasiya axınının prinsip və iş qaydalarını işləyib hazırlayır.

Kitabxanaların yeni iş istiqamətləri yeni sosial-mədəni situasiya və biblioqrafik reallıqla müxtəlif mövzularda və zamanın tələbi baxımından kitabxanalara edilən saysız-hesabsız müraciətlər, məktəb təhsilində prinsipial dəyişikliklər, ölkələrin təhsil sistemində istiqamətləndirmənin vacibliyindən irəli gələn yeni texniki vasitələrin yayılması ilə şərtlənir. Kitabxanaya bu gün təkcə müxtəlif sənədləri alıb toplayan mənbə kimi baxılır. İnformasiya axtarış xidmətində tələbatçının hüquq və maraqları ən vacib keyfiyyət kriteriyasıdır. Burada vacib obyekt şəxsiyyətin inkişafı və təhsillə əlaqədar uşaqların informasiya tələbatının ölənilməsidir.

Uşaq kitabxanası bu gün uşaqları təhsil, yaradıcılıq, təşkilati məsələlərə dair sənəd və biblioqrafik informasiyanın həm ənənəvi, həm də texniki vasitələrlə unikal şəkildə təmin edən bir mərkəzdir.

Azərbaycan milli kitabxanaşünaslığının banisi, Əməkdar elm xadimi, kitabxanaşünaslıq kafedrasının müdiri, professor Abuzər Xələfov qeyd edirdi ki, *Cəmiyyətin özünün informasiyalaşdırılmasında kitabxanaların rolu əvəzsizdir. Tipindən asılı olmayaraq bütün kitabxanalar hamisi olduğu cəmiyyətin formalaşmaslında yaxından iştirak edir. Beləliklə, bütün tip kitabxanalar, o cümlədən uşaq kitabxanalarının informasiyalaşdırılması aktual bir problemdir.*

Toplanmış küllü miqdarda sənəd və informasiya uşaq mütaliəsinin rəhbərləri-müəllimlər, tərbiyəçilər, valideynlər üçün nəzərdə tutulur. Onu da qeyd edək ki, hazırda təhsilin məzmun və təşkilində dəyişikliklər etməyə ehtiyac var. Rusiya Dövlət Uşaq Kitabxanasının şöbə müdiri, pedaqoji elmlər





namizədi V.P.Çudınova öz məqaləsində qeyd edir ki, "bu vaxta qədər məktəbdə keçirilənlərin dəyişilməsi sistematik xarakter daşımır. Bunun üçün yeni iş metodlarının tətbiqi vacibdir. Bu məqsədlə tədrisin, yeni dərs proqramlarının, dərsliklərin və dərs vəsaitlərinin elmi-metodiki səviyyəsini təyin etmək məsələsi ortaya çıxır. Təlim və tərbiyədə uşaq kitabxanalarının rolu baxımından müəllimlərin yeni metodla işləmək basarığının və istəyinin ortaya çıxarılması vacibdir. Müəllim-kitabxanaçı-şagird əlaqəsi olmadan heç bir mükəmməl tədris-informasiya mövzularının təminatından söhbət gedə bilməz". Müəllim uşaq kitabxanalarının köməyi ilə daha əsaslı biliyə malik ola bilər. Müəllimlərin tədris prosesini genişləndirən və dolğunlaşdıran bir vasitə kimi kitabxanaları qəbul etmələri vacibdir. Təhsil müəssisələri tədrisə informasiyanın yaxından kömək etməsi üçün kitabxanalara sosial sifarişlər verməlidirlər. Bu şəraitdə işləyən Rusiya Dövlət Uşaq Kitabxanası informasiya təşkilatları ilə sıx əlaqədə, əhatəli şəkildə işləyir, bu isə tələbatçıların müxtəlif sorğularına cavab verməyə, eyni zamanda meydana çıxan yeni informasiya tələbatlarının ödənilməsini təmin edir. Kitabxana işinin əsas məqsədi kitabxananın sənəd və informasiya resurslarından istifadəni fəallaşdırmaq və asanlaşdırmaqdan ibarətdir. İnformasiyanın gündən-günə artan həcmi müxtəlif çap məhsullarının vidio-audio, elektron sənədlərinin artması, informasiya tələbatçılarının psixologiyasının dəyişməsi, bütün bunlar sözsüz ki, biblioqrafik sənədlərin həcminə və məlumat-biblioqrafik aparatının (MBA) təşkili işinə təsir edir. Sənəd bazasını dağıtmaq olmaz, daxil olan informasiyanı saxlamaq, yubandırmaq olmaz. Çünki buraxılmış materiala sonradan qayıtmaq çətindir.

MBA-nın keyfiyyəti, onun modernləşdirilməsi bu gün kitabxananın faydalılıq, əhəmiyyətlilik faktoru, onun sonrakı inkişafında əsas şərt kimi qəbul edilir. Toplanmış informasiya resurslarının rassional və çoxplanlı istifadəsi problemini həll edərək kitabxana MBA-nın çoxşaxəli sistemini yaratmışdır. Bu da kitabxananın vahid informasiya potensialını təşkil edir.

MBA-nın informasiya resurslarına aşağıdakı kriteriyalar daxildir.

1. Məzmun (müəllif, tematik, faktoqrafik, fərdi);
2. Oxucu təyinatı (yaş həddi);
3. Məzmun təyinatı (oxucu üçün, peşə üçün);
4. Daxilolma zamanı (ardıcıl, retrospektiv);
5. Nəşr növləri (kitab, dövri mətbuat, not, izonəşr, audio-vidio materiallar)

Bu gün real MBA-ya onun virtual hissəsi əlavə edilmişdir. İş təcrübəsinə müraciət etdiyimiz RF-nin Çelyabinsk Vilayət Uşaq Kitabxanası avtomatlaşdırılmış texnologiyaya keçərək özünün yeni informasiya reallığına uyğun ənənəvi kitabxana modelini yaratmağa çalışır. Bunun üçün informasiya mərkəzi kimi kitabxananın strateji modernləşdirmə proqramı işlənib hazırlan-

maqdadır. Elektron bank məlumatlarının (EBM) yaradılması və funksiyalaşdırılması MBA-nın elektron daşıyıcılarına köçürülməsi perspektiv planda durur. Oxuculara informasiya – biblioqrafiya xidmətində göstəricilərin tam və dəqəq informasiya axtarışında keyfiyyəti dəyişilmişdir. MBA-nın yeni daşıyıcılara köçürülməsi asan proses deyil: texnologiya demək olar ki, boş bir məkanda, informatika üzrə xüsusi ədəbiyyatdan öyrənilir.

Uşaq kitabxanalarında spesifik texnoloji kompleks haqqında təsvir etdiklərimiz bu gün xüsusi ədəbiyyatda yoxdur. Ona görə də RF-nin uşaq kitabxanaları müstəqil şəkildə sənədlərin indeksləşdirilməsi, biblioqrafik yazı və maşınla oxumanın təşkili texnologiyası, məlumat-biblioqrafiya xidmətində elektron-məlumat bazalarından (EMB) istifadənin metodikası və s. işləyib hazırlamalıdır. Bununla bərabər, bir çox problemlər qalmaqdadır. Məsələn, uşaq kitabxanalarında elektron-biblioqrafik kompleksin linqvistik təminatının işlənməsi, təkmilləşmiş tematik vasitələrin toplanmış informasiyaya daxil edilməsinin başa çatdırılması (predmet rubrikalarının faylları, predmetləşdirmənin vahid qaydaları) fərdi kompüterlər vasitəsilə biz hər şeydən əvvəl axtarılan tapşırığı həll edirik. Mütəxəssislərin fikrincə, uşaqlar kompüteri ünsiyyət vasitəsi kimi dərk edir. Ona görə də uşaq psixologiyasını nəzərə alsaq, uşaq kitabxanasının linqvistik təchizatının vacib problem olduğunu görərik. Başqa cür olduqda uşaqlar proqramla işləyən zaman böyüklərin "prosedura" məntiqi ilə məhdudlaşır və onların əqli hərəkətlərinin çərçivəsinə düşürlər.

Biblioqrafik bazada məlumatların mabadiləsi perspektivlərini və elektron məlumat kataloqlarının yaradılaraq informasiya resurslarına qarşılıqlı daxil edilməsini nəzərə alsaq, yuxarıda sadalanan problemlərin aktuallığı daha çox nəzərə çarpır. Kitabxanada elektron-informasiya formalarının funksionallığının və istifadəsinin uğuru yeni texnologiyadan və biblioqrafik praktika metodlarından asılıdır. Bunun üçün isə lazımi nəzəri baza lazımdır. Bu baza isə Rusiya Dövlət Uşaq kitabxanalarının timsalında yeni yaranır. Hələ ki, kitabxana təcrübə toplamaqda davam edir, elektron kompleks sənədlərlə işin normativ texnoloji qayda və qanunlarını işləyib başa çatdırır, uşaq kitabxanaları üçün metodik tövsiyələr hazırlayır, elektron-məlumat bazasından istifadə çatışmamazlıqları və səhvləri üzə çıxarır.

2007-ci ildə kitabxananın 6 fərdi kompüteri vahid lokal şəbəkədə birləşmişdir. Onun arxitekturası çox asandır: iş yerləri arasında əlaqələr server xidməti vasitəsilə yaranır, hər işçinin məlumatları eyni yerdə yığılır, hər bir iş yerindən informasiya eyni sürətlə alınır. Kitabxana 3 ayrı-ayrı binada yerləşir. Hər bir stansiyadan modem vasitəsilə vahid şəbəkəyə qoyularaq kitabxana-bank məlumatlarından istifadə etmək mümkündür.

RF-nin Çelyabinsk Vilayət Kitabxanasının bank məlumatları bu gün 6 elektron məlumat bazasından ibarətdir. Onların içərisində:

1.Elektron kataloq;





2.Məqalə və dövri mətbuat;

3.Diyarşünaslıq;

4.Ədəbiyyatşünaslıq əsas yer tutur.

Xüsusi olaraq SMA və EMB-yə aid sənədlər paketi işlənib. Sənədləşdirmədə əsas tələb eynimənalılıq və aydınlıqdır.

Təəssüf ki, kitabxanada alət və metodikaların seçimi proqram təchizatından asılı olduğu üçün çox vaxt sənədlərin tərkibi, biblioqrafiyalaşdırmanın metodiki prinsipləri, axtarış məqsədləri və standart biblioqrafik təsvirlər üst-üstə düşmür. Ona görə də daha geniş axtarış imkanları olan unikal məlumat bazaları hazırlanır. EMB-nin yaranması perspektivləri oxucu sorğuları və məlumat biblioqrafiya xidmətinin imkanlarından asılıdır.

Avtomatlaşdırılmış texnologiyanın fəallığı kitabxana işçilərinin mütəxəssis psixologiyasının qurulması, "kağız-kartoçka"dan yüksək təsnifatlı elektron vasitələrə keçirilməsinin vacibliyi ilə əlaqədardır. Yeni kitabxana texnologiyası kompleks qarşılıqlı əlaqədir: informasiya-maşın-insan, burada yenə də insan ən başlıca amildir.

Biblioqrafik axtarış zamanı oxucuların fərdi kompüter istifadəçilərinə çevrilməsi ayrıca problemdir. Bu gün onların biblioqrafik savadsızlığına kompüter savadsızlığı da əlavə edilir. Uşaqlar tez-tez sonsuz informasiya ilə rastlaşırlar, hansı ki, onu düzgün istifadə və qəbul edə bilmirlər və yaxud onun əhəmiyyətini başa düşmürlər. Kitabxanaçının vəzifəsi uşağa informasiya axtarışını və onun keyfiyyətini qiymətləndirməyi öyrətməkdir.

Dərin elmi təfəkkür bu cür çətin sistemdə mütaliə mədəniyyətinin tərbiyə edilməsini tələb edir. Kitabxana dərsləri, fərdi tədrislər uşaqları axtarış prinsiplərini öyrənməyə yönəldir: əlifba, sistemli, predmet. Bu günkü uşaqlar informasiya resurslarının gələcək istifadəçiləridir, ona görə informasiyanın nə qədər effektli qəbul edilməsi kitabxanalardan çox asılıdır.

MBA-dan ənənəvi və elektron daşıyıcıları vasitəsilə istifadənin metodikası kitabxanada kompleks işlənilir. Biblioqraflar kompüterdən öz məqsədləri üçün istifadə etməməlidir. Bu vasitə tələbatçının müstəqil axtarışına şərait yaradan tez, dəqiq və tam biblioqrafik informasiya almağa kömək edən alətdir.

Kompüterləşdirmə zamanı aydın olur ki, kitabxana təkcə biblioqrafik sənədlərin saxlandığı və yayıldığı mərkəz deyil. Kitabxana həm də öz oxucularını sənədlər haqqında informasiya almağa, istiqamətləndirməyə də malikdir.

Biz həm də kompüterə uşaqları cəlb edən texniki vasitə kimi baxırıq. Bu isə kitabxanaya doğru daha bir yoldur. Bu vasitə uşaqlarda kitab və biliyə maraq oyadır. Belə ki, kompüterdən biblioqrafik informasiyanı aldıqdan sonra oxucu kitab rəfinə yaxınlaşır. Virtual aləm və real kitabxana arasında belə özünəməxsus körpü kitabxananın populyarlığını artırır. İnformasiya vasitələrinin birləşməsi kitabxananı təhsilə marağı artıran intellektual sahəyə çevirir.

Uşaq kitabxanasının informasiyalaşdırılmasında lazımi şəraitin olması oxuculara öz informasiya tələbatlarını dərk etməkdə kömək edir. Kitabxanada oxucu sorğusunun mövzusu, onların motivi, uşaqlar tərəfindən alınan informasiyanın effektliyi təhlil edilir və gələcək sorğular proqnozlaşdırılır. Bu cür yanaşma MBA-nın və SBA-nın təkmilləşdirilməsi işini planlaşdırmağa, tələbatçıların mütaliə mədəniyyəti tərbiyəsinə gətirib çıxarır.

Biblioqrafik vasitələr az olduqda biblioqraflar fəal təşkilati iş aparır, bu iş oxucu sorğularına və kitabxanada olan sənədlərə əsaslanır. Bu vəsaitlərdən çox effektiv istifadə edilir. Məzmunu daim dəyişən kitab və və informasiya sərgisindən fərqli olaraq biblioqrafik siyahılar və icmallar oxuculara informasiya xidmətində əsas vasitədir. Kitabxanada biblioqrafik informasiyanın oxuculara çatdırılmasında Rusiya Dövlət Uşaq Kitabxanasının "LİKS-İzbornik" adlı biblioqrafik elektron versiyasından SD-ROM elektron ensiklopediyadan istifadə edilir. Onlarla işlədikdə uşaqlar çoxcəhətli informasiyanı qəbul etmək vərdişlərinə yiyələnirlər: mətn, təsvir, səs, hərəkət.İnternetə çıxmaq üçün kitabxana "Açıq Cəmiyyət", "Kitabxana və internet" institutlarının qrantını alıb.

Müasir texnologiya kitabxana xidmətinin mühitini dəyişərək, eyni zamanda oxucuların inkişaf prosesində hərəkətverici vasitə rolunu oynayır.

Tələbatçıların informasiya axtarış vərdişləri ilə məşq edərkən, çalışmaq lazımdır ki, uşaqları əsas məqsəd olan kitabxanaya müraciətdən ayırmayaraq. Cünki mütaliə prosesi onlarda şəxsi yaradıcılıq meylləri əmələ gətirir. Burada uşaqlar təkcə informasiya almır, onlar eyni zamanda mədəni sərvət hesab edilən kitablarla tanış olmaq imkanı da əldə etmiş olurlar. Ona görə kitabxana kitaba yaradıcı münasibəti əsas vəzifə kimi qarşıya qoyur. Əsas məsələ kimi yeni kitabxana texnologiyasını müasir oxucuya informasiya xidmətinin təkmilləşdirilməsi baxımından şamil edirlər.

Qeyd etməliyik ki, kitabxanada uşaq mütaliəsinin təşkilində sistemli yanaşma aktual problemdir. Uşaq mütaliəsinin təşkili özündə bir çox mürəkkəb, çoxaspektli problemlər kompleksini birləşdirir ki, bu problemlərin həllində sistemli yanaşmanın tətbiqi vacibdir. Kitabxanaşünaslıq məsələlərinə baxışda sistemli yanaşmanın tətbiqinin əsasları, «Kitabxana işinə baxış: sistemli yanaşma» kitabında əks etdirilmişdir. Buradaca xatırladırıq ki, sistemli yanaşma obyektləri, hadisələri və qarşılıqlı əlaqədə olan elementləri sistemləşdirməyə imkan verir, lakin bu o demək deyil ki, onların öyrənilməsi məhdud xarakter daşıyır, sadəcə, onların öyrənilməsinə az və ya çox yanaşmadan söhbət gedə bilər (makroyanaşma, mikroyanaşma). Hər hansı bir sistemə fəzada çoxölçülü fiqur kimi baxmaq olar. Verilən fiqurun bölmələrini təhlil edərkən sistemin bu və ya digər xarakteristikası «axmağa» başlayır (sistemlərin dekompozisiyası bölmələri).

Sistemli yanaşmanın tətbiqi əsasında tipik alqoritm məsələlərinin həlli





üç mərhələyə bölünür:

I mərhələ — Baxılan problemi modelləşdirən sistemin kəsiklərinin optimal miqdarı və siyahısının təyin edilməsi. Məsələn, əksər kitabxanaşünaslıq məsələlərinin həllində kitabxana funksiyalarına dair kəskin istifadə edilə bilər.

II mərhələ — Hər bir bölmənin təhlili. Bu bölmə çərçivəsində hər hansı bir məsələnin həllini təmin edən innovasiyanın işlənib meydana çıxarılması. Bölmədə əsas kitabxana funksiyalarına dair baxılan problemlərdə, məsələn, hər bir funksiyanın reallaşdırılması zamanı uşaq mütaliəsinin təşkili ilə əlaqəli olan innovasiyalar işlənə bilər.

III mərhələ — Bu və ya digər sistem bölmələri çərçivəsində işlənilmiş hər bir xüsusi innovasiyanın digərləri ilə əlaqəsini hesablamaq yolu ilə ümumsistemə çevrilməsi. Qarşılıqlı əlaqələrin hesablanması, eləcə də bütöv sistemdə ayrı-ayrı innovasiyalar çərçivəsində əkslik təşkil edən, vəziyyətlərin uzanması hər bir innovasiyanı daha məzmunlu edir və ona ümumsistemlilik statusu verir. Məsələn, məlumat funksiyasının realizəsi çərçivəsində hazırlanmış innovasiya, uşaq mütaliəsinin təşkili və başqa kitabxana funksiyaları eləcə də oxucuların yaşı, kitabxananın strukturu və s. innovasiyalarla uzlaşmalıdır. Yalnız bu zaman onun məzmunu maksimal surətdə açır tam sistemə daxil olmağa ehtiyac qalmır.

Hazırda kitabxanada uşaq mütaliəsinin təşkili sistemli yanaşma baxımından aşağıdakı istiqamətlərdə öyrənilir.

I – Uşağın psixoloji, intellektual və mədəni göstəriciləri (diqqət, hafizə, obrazlı və məntiqi düşünmə qabiliyyəti, nitq və davranış mədəniyyəti ünsiyyət və yaradıcılıq qabiliyyəti).

II – Uşaqlarla işləyən kitabxanaların əsas funksiyaları (məlumatlandırmaq, maarifləndirmə, tərbiyə, asudə vaxt).

III- Uşaq oxucunun yaş kateqoriyası.

IV — Kitabxana işinin formaları (fərdi və kütləvi).

V — Kitabxananın konkret şəraitindən asılı olaraq kitabxananın struktur bölmələri (abonoment, oxu zalı, məlumat-biblioqrafiya şöbəsi, kompüter sinfi, sərgi zalı, ədəbiyyat otağı və s.).

VI — Uşaq mütaliəsinə təsir edən digər müəssisələrlə qarşılıqlı əlaqə (məktəbəqədər və tədris müəssisələri, uşaq yaradıcılığı və məktəbdənkənar iş mərkəzləri).

Təbii ki, bu uşaq mütaliəsinin təşkilində sistem bölmələrinin heç də tam siyahısı deyil. Mütaliənin tematik istiqaməti və funksional təyinatı, kitabxanada uşaq mütaliəsinin təşkilində kadr təminatı, sosial vəziyyətə görə mütaliənin təhlili, uşağın cinsinin təyin edilməsi və s. siyahıdan kənarda qalan məsələlərdir.

Bu baxımdan uşaq mütaliəsini öyrənən mütəxəssislər bir qayda olaraq,

ədəbiyyatın hansı növ və janrının, hansı müəllifin uşağın psixoloji, intellektual və mədəni inkişafına daha çox və güclü təsir göstərdiyinə diqqət edirlər.

Mənəvi mədəniyyətin formalaşması, insanı əhatə edən mühitin dərindən dərk edilməsi, insanda gözəl hisslərin tərbiyəsi, həmdərd olma, əziyyətə dözmə və rəhmlilik hissləri, mənəvi və vətəndaş mövqeyi, bütün bunlar bədii ədəbiyyatda öz əksini tapır.

Bununla bərabər uşaqlarda müxtəlif elm və incəsənət növlərinin əsaslarını açan elmi dərketmə və inkişaf edən ədəbiyyatla ünsiyyət olmazsa, o zaman heç bir intellektual inkişafdan söhbət gedə bilməz. Son dövrlərin psixoloji-pedaqoji araşdırmaları paradoksal bir halı üzə çıxarmışdır: məktəbdə tədris prosesində əldə edilən biliklərin artması, uşağın əqli imkanlarının azalmasına səbəb olur. Beləliklə, tədrislə inkişaf arasında ziddiyyət yaranır.

Bu problemi aradan qaldırmaq üçün kitabxanalar, məktəblər, gimnaziya və litseylərlə birbaşa fasiləsiz surətdə işlənməli, inkişafetdirici məşğələlər elmi məşğuliyyət saatı, elmsevərlər klubu və s. təşkil edilməlidir. Burada işin əsasında elmi dərketmə və bədii ədəbiyyat dayanmalıdır. Belə ədəbiyyatın mütaliəsi uşaq inkişafında elmsevərlik, müşahidə etmək qabiliyyəti emosionallıq kimi hisslərin yaranmasına əhəmiyyətli təsir göstərir. O, gənc oxucuda «tədqiqatçı» ruhunun əmələ gəlməsinə kömək edir. Körpələrə ən əvvəl «poçemuçkanın kitablarını», yeniyetmələrə isə Y.İ.Perelmanın işlərini tövsiyə etmək lazımdır. Eləcə də uşaqların böyüklərlə bir yerdə oxuması üçün nəzərdə tutulan ədəbiyyata da diqqət etmək lazımdır. Bununla bərabər E.P.Levitan «Uşaqlara ulduzlar və planetlər haqda», M.V.Revenko «Uşaqlara coğrafi nəşrlər haqda», A.S.Klenov «Uşaqlara minerallar haqda», «Harada ki musiqi yaşayır» kimi əsərlər və müxtəlif nəşriyyatların çap etdirdiyi cürbəcür ensiklopediyalar tövsiyə olunmalıdır.

Əlbəttə, bu gün bu növ ədəbiyyatın siyahısını daha da artırmaq olar, lakin müxtəlif kitabxanaların çoxillik iş təcrübəsinə əsaslanaraq, elə əsərlər tövsiyə edilir ki, onların mütaliəsi maksimum effekt verir. Məsələn, N.Lenqdon və Ç.Sneypa «Riyaziyyatla səyahət» kitabı ibtidai və orta siniflərdə məktəb proqramına maraqlı və xeyirli əlavə ola bilər.

Bu hissədə uşaq mütaliəsinə nəzər salarkən, görürük ki, onların psixoloji – intellektual, mədəni inkişafında, xüsusilə məktəbəqədər və aşağı siniflərdə özünüinkişafa çalışma, ətraf mühiti dərketmə tələbatında oxunmuş kitablarla əlaqədar məşğələlərin, söhbətlərin, müsabiqə, ədəbi oyunların, səhnəciklərin, müxtəlif məzmunlu müzakirələrin çox böyük əhəmiyyəti vardır. Şübhəsiz ki, sual və tapşırıqlar sistemində qurulmuş kitab haqqında söhbətlər də böyük əhəmiyyət daşıyır. Hansı ki, bu təkcə yadda qalan hadisələr və qəhrəmanlara aid suallara cavab verərkən uşaqların diqqət və hafizəsini yoxlamağa imkan verməklə kifayətlənmir, həm də əsərin ideyasını, personajların hərəkətlərinin motivini dərindən dərk etməyə, onları öz təsəvvürləri ilə müqayisə etməyə





kömək edir. Bundan əlavə, söhbət prosesində uşaq həm öz lügət ehtiyatını nümayiş etdirir, eyni zamanda onu təkmilləşdirir, danışıq qabiliyyəti əldə edir, oxunan əsərə öz münasibətini formalaşdırır, məntiqi düşünür və başqasına qulaq asmağı bacarır.

Çoxdan və yenicə oxunmuş əsərin müqayisəsi, uşaqda qısamüddətli və uzunmüddətli hafizənin məqsədinə imkan yaradır. Söhbətlərin sistematik aparılması hər yeni əsərin oxunuşuna yaradıcı münasibət aşılayır.

Bu məqsədlə Rusiya Federasiyasının qabaqcıl uşaq kitabxanalarında bir sıra təsir formalarına müraciət edilir ki, bu da mütaliənin səmərəlilik göstəricilərinə müsbət təsir göstərir.

İnformasiya funksiyası – Bu funksiyadan söhbət açarkən, hər şeydən əvvəl aydınlaşdırmaq lazımdır ki, ən müxtəlif mənbələr-ensiklopediyalar, məlumat nəşrləri, bütün elmlər üzrə elmi-dərketmə ədəbiyyatı, dövri nəşrlər, kataloqlar, kartotekalar, məlumat bazaları, internet, audio-videoyazılar uşaqlar üçün nə qədər əlçatandır. Eləcə də kitabxana fondunun komplektləşdirilməsinə, onun ixtisaslı mütəxəssislərə, kompüter texnikası və audio-video istehsalı vasitələri ilə təminatına tələbat da qanunauyğundur.

Aydındır ki, informasiya resurslarının çoxaldığı bir dövrdə gənc oxucuya informasiya axtarışının metodikasının öyrədilməsi vacibdir. Bu mütaliənin xüsusi tiplərinə əsaslanan-tezoxuma, müxtəlif simvolik işarələrin sifrini açmaqdır. Bu gün uşaqlara funksional (işgüzar, maarifləndirmə) mütaliə vərdişlərinin aşılanması vacibdir, çünki kitabxanaçılar uşaqların referat və məruzə yazmaq bacarıqlarının olmaması ilə tez-tez rastlaşırlar. Bunun üçün geniş axtarış vərdişlərini mənimsəmək və çoxsaylı mənbələr içərisindən əhəmiyyətli məlumatların seçilməsi lazımdır. Bu planda uşaqların müasir kompüter psixologiyasından istifadəyə qoşulması vacibdir. Qeyd edək ki, kitabxana burada da əhəmiyyətli rol oynayır. Beləliklə, biz digər-maarifləndirmə funksiyasına keçək.

Bu kitabxana funksiyasının reallaşdırılma istiqamətlərindən biri uşaq mütaliəsinin təşkilinə uyğun olaraq, uşaqların kitabla işləməsi üçün komfort şəraitin yaradılmasıdır-bunun üçün onun ixtiyarına bina, avadanlıq, texniki vasitələr, eləcə də ev tapşırıqlarını həll etmək üçün kömək lazımdır.

Kitabxanada maarifləndirici funksiyanı həyata keçirərkən uşaqların bədii ədəbiyyata maraqlarının artmasına imkan yaratmaq lazımdır. Gənc oxucu böyüdükcə, bu məsələ daha vacib xarakter daşıyır. Kitabxana ilə əməkdaşlığa peşəkar ədəbiyyatçıların, artistlərin cəlb edilməsi, onların iştirakı ilə ədəbiyyat gecələri, disputlar, konfranslar, yeni kitabların təqdimatı, ədəbi-musiqili konsertlərin keçirilməsi daha faydalı effekt verir.

## ƏDƏBİYYAT

1.Kitabxana işi haqqında Azərbaycan Respublikasının Qanunu// Kitabxanaşünaslıq və biblioqrafiya:elmi-nəzəri və təcrübi jurnal / BDU.-B.,1999.-№1.-s.11-12.
2.Xələfov A.A. Kitabxanaşünaslığa giriş. Dərslik:3 cilddə.I-II hissələr.-B.: BUN, 2001.-400s.
3.Xələfov A., Əhmədov E. Məktəb kitabxanaları Azərbaycanın müstəqilliyi şəraitində // Kitabxanaşünaslıq və biblioqrafiya.-2004.-№2.-s.3-14

**Особенности информатизации детских библиотек**

**Э.Ахмедов**
**Кандидат педагогических наук, досент.**

**РЕЗЮМЕ**

В статье анализируется елементы влияющие информатизации детских библиотек. Рассматривается вазможности компютеризации, информатизация и расширение информационно-документального фонда детских библиотек.

**Ключевые слова:** детские библиотеки, информатизация, компютеризация, информационно - документ насители.

**Features informational children's libraries.**

**E.Ahmedov**
**Ph.D. docent.**

**SUMMARY**

The paper analyzes the influence of information Components of children's libraries. Considered vazmozhno komryuterizatsii, information and extension information and documentary fund children's libraries.

**Keywords**: children's library, information, komryuterizatsiya, information - a document nasiteli.